# ÖLMÜŞ ŞƏXS ÜÇÜN AĞLAMAQ

## Allahın Rəsulunun (s) sünnətlərindəndir




Əllamə Seyyid Mürtəza Əsgəri

**Əllamə Seyyid Mürtəza Əsgəri**

# ÖLMÜŞ ŞƏXS ÜÇÜN AĞLAMAQ

Allahın Rəsulunun (s) sünnətlərindəndir (davranışlarındadır)

Bakı - 2005

## Bismillahir-Rəhmanir-Rəhim


| | |
|---|---|
| **Kitabın adı:** | Ölmüş şəxs üçün ağlamaq |
| **Müəllif:** | Əllamə seyyid Mürtəza Əsgəri |
| **Tərcümə edən:** | Haçı Rizvan İsmayılov |
| **Redaktor:** | Nizami Məmmədzadə |
| **Kompüterdə yığdı:** | Rəna Yolçuyeva |
| **Kompüter dizaynı:** | Elnur İbrahimov |
| **Çapxana:** | «Kolori» nəşriyyatı |
| **Çap növbəsi:** | Birinci çap |
| **Çap tarixi:** | Yanvar 2005 |
| **Tiraj:** | 3000 |

Nəşir: «ƏHLİ-BEYT» cəmiyyəti

## HƏR GÜN AŞURADIR, HƏR YER KƏRBƏLA!

Bildiyimiz kimi fevral ayının 11-də Məhərrəm ayı daxil olur. Bu ay bütün müsəlmanların hüznlü, dərdli, kədərli ayıdır. Gürcüstanın müsəlmanlar məskünlaşan bölgələrində Məhərrəm ayı xüsusilə hazırlaşır və onun gəlişini səbirsizliklə gözləyirlər.

Məhərrəmlik ayinlərini Sovet dövründə də gah gizli, gah da aşkar şəkildə həyata keçirirdilər. Bütün qadağalara baxmayaraq o dövr müsəlmanları, xüsusilə biz azərbaycanlıların qəlbində dinimizə olan böyük məhəbbəti söndürə bilmədi, əksinə qəlbimizdə öləziyən məhəbbət ocağı getdikcə alovlandı, alovlandı və kür yanmağa başladı.

Bizim bu mühüm və savab işimizə mane olanlar da tapıldı. Son vaxtlar müxtəlif yerlərdə başımızın üstündə təhlükəli mövqe tutan təriqətlər meydana çıxıb. Belə təriqətlərdən biri olan vəhhabilik müsəlmanları getdikləri haqq yolundan yayındırmaq, İmam Hüseyn (ə)-a əza saxlamağı, sinə vurub, göz yaşı axıtmağı günah hesab edib, İmam Hüseyn hərəkatına qarşı əks təbliğat aparmaq kimi müxtəlif məqsədlər güdürlər.

İmam Hüseyn (ə) hərəkatının əsas məğzini başa düşmək, dinin pərvəriş tapması üçün, onun əbədi olaraq biz müsəlmanların qəlbinə hopması üçün İmam Hüseyn (ə) tərəfindən atılan bu cəsarətli addım təkcə biz müsəlmanaları yox, eyni zamanda dünyada yaşayan qeyri millətlərin nümayəndələrini də heyrətləndirmiş, həm də onların qəlbində İslam özünə yer tapa bilmişdir.

Əziz oxucular! Bu kitabçanı tərtib etməkdə məqsədimiz odur ki, haqq əməlimizə qarşı çıxanlara cavab olaraq məşhur hədis və tarix kitablarından möhkəm dəlillər gətirib onları susduraq. Çünki, İmam Hüseyn (ə) əzədarlığı həm Qurana

uyğundur, həm də Peyğəmbərimizin sünnət və davranışlarına əsaslanır.

Hər bir müsəlman İmam Hüseyn (ə) kimi möhkəm və saf əqidəli olmalı, atdığı müqəddəs addımın möhkəm dayaqlar üzərində ucalmağına inanmalıdır.

Əziz Hüseyn (ə) aşiqləri! Ey haqq yolunun carçıları! Əlinizi sinənizə vurun. Bilin ki, sizin səsinizi o müqəddəs insan - İmam Hüseyn (ə) eşidir. Bilin ki, şəhidlər ölmürlər, onlar ucalırlar. İllər, qərinələr dolandıqca o mübarək insanların adı da, əməlləri də yenə ürəklərə yol tapacaq, yaşayacaq, yaşayacaq...

Allah hamının əzadarlığını qəbul etsin və sizi İmam Hüseyn (ə)-ın mübarizəsinin mənasını dərk edənlərdən qərar versin. Amin.

*** İmam Hüseyn (ə) dərk et, sonra isə sinə vur!**
*** O sinələr dərd-bəla görməsin!**
*** Biz haqq yolundayıq, əməlimiz Haqq işdir!**

*Böyük alim Seyyid Mürtəza Əsgərinin kitabına başlamamışdan öncə, oxucularımızı qoyun dərisi geyinmiş qurdlardan, yəni əllərində Quran və Peyğəmbər sünnəsini əsas götürən, amma dinə zərbə vuran qondarma Vəhhabilik məzhəbinin tarixçəsi ilə tanış etməyi lazım bildik.*

## VƏHHABİLİYƏ QISA BAXIŞ

Miladi tarixi ilə XVIII əsrin birinci yarısında İslam dünyasında böyük bir fitnə yarandı. Müsəlmanların bir qrupu Quranın ayələrinin zahiri mənalarını əldə əsas tutaraq dinə bidət gətirdilər. Onlar müqəddəs kitabın ayələrinin bir-birini şərh etdiyini qəbul etmir, bu yolda Peyğəmbərin (s) hədislərinin və rəftarının da, köməyinə şübhə ilə yanaşır, bunların əsas rol oynadığını inkar edirlər. Onlar Allahı cism sayır, «böyük günaha» mürtəkib olanları kafir və mürtəd bilirdilər. Bütün bunlar da yalnız və yalnız Quranın zahiri mənalarını qeydsiz-şərtsiz qəbul etdiklərinə, hər cür şərhdən və izahdan uzaq qaldıqlarına görə idi. Bu qrup «xəvaric» adlandırılırdı.

Özlərini «abid» sayan, hətta Quranı əzbər bilən bu şəxslər heç bir dini, elmi, ictimai təhlillərə malik olmadıqları üçün Siffeyn döyüşündə Müaviyə kimi şəxsin hiyləsinə aldanaraq, onun, yoxsa Həzrət Əlinin (ə) haqlı olduğuna hökm verməkdən çəkindilər. Belə ki, artıq döyüşdə məğlub olduğuna görə Müaviyə (öz hiləgər vəziri Əmr ibn Asın məsləhəti ilə) öz əsgərlərinə Quranı cıraraq səhifələrini nizələrə keçirtməyi və sülh istəməyi əmr etdi. Həzrət Əlinin (ə) qoşununun az qala yarısını təşkil edən bu qrup isə, düşmənin etdiyi hərəkətdən vəcdə gələrək, onu döyüşün dayandırmağa və hər iki tərəfin

nümayəndəsinin iştirakı ilə münsiflər məhkəməsi çağırmağa məcbur etdilər. Sonra isə

إِنِ الْحُكْمُ إِلَّا لِلَّهِ

***«Hökm ancaq Allahındır»***[1] ayəsini əldə bayraq edərək, məhkəməni Allaha məxsus olduğunu və bu işə razı olanların isə kafir olduğunu iddia edərək, özləri də bir növ hökm etdilər. Onlar özlərini də kafir bilərək tövbə etdilər. Sonra isə Həzrət Əli (ə)-ın və başqa müsəlmanları «kafir» elan edib, onları tövbə etməyə çağırdılar». Özlərindən başqa hamını dinsiz, allahsız sayan xəvaric qoşun cəmləyərək günahsız müsəlmanların evinə basqın edir, yol kəsir, məsum insanları qətlə yetirir, var-yoxlarını «mürtəd» ittihamı ilə talayırdılar. Xəvaricin İslamda yaratdıqları fitnə o qədər dəhşətli idi ki, Həzrət Əli (ə) onları «Mariqin» döyüşündə məğlubiyyətə uğratdıqdan sonra belə buyurdu: **«Ey insanlar, bilin ki, fitnənin gözünü kor etdim».**[2] Xəvaricin fəsadı və yaratdığı dəhşət o qədər qorxulu idi ki, Həzrət Əli (ə)-dan sonrakı xəlifələr və bütün müsəlmanlar daim onlarla mübarizə aparırdı. Çünki İslam Peyğəmbəri (s) hələ çox əvvəllər Əmmar Yasirə xəvariclə mübarizənin hər bir kəsə vacib olduğunu demişdi.[3]

Zaman keçdikcə xırda təriqətlərə: əzrəqilərə, sufilərə və ibadilərə bölünən «xəvaric» unudulmağa, yoxa çıxmağa başladı. Çox illərdən sonra isə onların fikir və ideyaları başqa şəkildə, özünün daha da radikal formasında, h.q. tarixi ilə 650-ci ildə İbn Teymiyyə adlı bir nəfərin təlimlərində öz əksini tapdı. O, xəvaricin fikir və əməllərini müdafiə edirdi.[4]

---

[1] «Ənam» surəsi, ayə 57.
[2] Nəhcül-bəlağə bölüm 5, xütbə səh. 246.
[3] «Məcməuz-zəvaid» cild 7, səh. 238; «Müsnədi-əbi Yəli» cild 3, səh. 194.
[4] «Minhacüs-sünnə» cild 4, səh. 37; cild 7, səh. 57-59.

İbn Teymiyyə müsəlmanların arasında heç bir məneəsi olmayan, onların çoxdan əməl etdikləri, savab saydıqları işləri, məsələn: Qəbirlərin ziyarət etməyi, bayram və yas mərasimlərini kecirməyi, Allahdan başqasına and içməyi və s. kimi əməlləri haram, şirk sayır, bu əməl sahiblərini müşrik adlandırırdı.[1]

İbn Teymiyyənin fikirləri bütün müsəlman alimlərinin əqidəsinə əsasən İslam dinində «qondarma yenillik», «bidət» olduğu üçün, onlar İbn Teymiyyə ilə elmi mübahisələrə girişdilər. O, dəfələrlə meydanı məqlub kimi tərk etsə də, öz fitnə-fəsadla dolu ideyalarından əl çəkmədi. Buna görə də, sünnü alimlərinin fitvasına əsasən ömrünün sonunadək zindanda qalmalı oldu və 728-ci ildə oradaca öldü.[2]

Təqribən üç yüz il sonra isə bu fikirlər Məhəmməd ibn Əbdülvahhabın vasitəsilə Ərəbistan yarmadasından yenidən dirçəldi. Hazırkı dövrdə də, İslam aləminin ən radikal məzhəbi olan «Vəhhabilik» elə onun adı ilə bağlıdır.

## Vəhhabiliyin qısa tarixi

Məhəmməd ibn Əbdülvahhab 1703-cü ilin baharında Nəcd vilayətinin Üyeynə qəsəbəsində Əbdülvəhhab ibn Süleyman adlı bir qazinin evində doğuldu.

Ərəbistan yarımadasının bir qismini əhatə edən Nəcd vilayəti tarix boyu yalançı peyğəmbərlərin məskəni olmuşdur. Onların gündəlik məşğuliyyəti qarət, soyğunçuluq və oğurluq idi. Bir sözlə, mədəniyyət özünün aşağı mənasında orada təzahür etmişdi.[3]

---

[1] «Məcmuətur-rəsail vəl məsail» cild 1, səh. 60; «Ət-təvəssül vəl-vasilə» səh. 156; «İrtizaus-siratil-müstəqim» səh. 295-296.

[2] «Miratul-cinan» cild 4, səh. 277; «Əl-bidayə vən-nihayə» cild 14, səh. 4; «Əl mənhəlus-safi vəl-müstəvi bədəl vafi» səh. 340.

[3] «Yeni şəfəq» cild 1, səh. 26; «Nəcd tarixi» səh. 46.

Əhli-sünnət məzhəbli Məhəmməd, hənbəli fiqhini atasından təlim almaqla yanaşı təfsir, hədis və əqidə kitabları da oxuyurdu. Amma elə cavan yaşlarından başlayaraq bəzi dini ayinləri və qanunları tənqid edib, ruhani alimlərə istehza ilə yanaşır və onlara daim məsxərə edirdi. Qəribə bir xasiyyətə malik olan Məhəmməd ibn Əbdülvəhhab Mədinədə dörd il oxudu. O, burada ibn Teymiyyənin kitablarından təsirlənərək, «Əl-tövhid» kitabını yazdı. Elə oradaca, müsəlmanların Allahın sevimli elcisi Məhəmməd peyğəmbərin (s) qəbrini məhəbbət və ehtiramla ziyarət etdiklərini gördükdə, onları Peyğəmbər (s)-ın ziyarətindən, ona təvəssül etməkdən çəkindirməyə başladı.

Bunu görən mömin müsəlmanlar onu Mədinədən qovdular. O, əvvəl Dəməşqə, sonra isə Bəsrə şəhərinə yollandı. Orada da, hələ Məhəmməd Peyğəmbərin (s) zamanından bəri müsəlmanlar arasında məşhur olan və savab sayılan dini ayin və əqidələri inkar etdiyinə görə xalq tərəfindən qovuldu. Bəsrə və Zübeyr arasındakı yolda səfərdə olarkən, susuzluq və yorğunluqdan ölüm həddinə çatmış Məhəmmədi bir kəndli xilas edərək, öz kəndinə aparır. Məhəmməd oradan çıxaraq Hüreymilə şəhərinə səfər edir. Burada Nəcd camaatının və atasının əqidəsini inkar edir, nəticədə atası və xalq onun yanlış fikirlərilə mübarizəyə başlayırlar.

Üyeynə şəhərinə qayıdan Məhəmməd ibn Əbdülvahhab, şəhər valisi Osman ibn Həmdlə sazişə girərək, ona kömək edərsə, gələcəkdə Osmanı Nəcdin valisi edəcəyinə söz verir. Bunu duyan Əşşa şəhərinin əmiri bu işə mane olur. Osman isə Məhəmməd ibn Əbdülvahhabı ordan qovur.

1740-cı ildə Məhəmməd ibn Səud (Ali-Səudun əcdadı) Dəriyyədə Məhəmməd ibn Əbdülvahhabı hörmətlə qarşılayaraq, onunla müqavilə bağlayır. Müqaviləyə əsasən ibn Səud onu qüvvə, pul və qoşunla təmin etməli və onun əqidəsini yaymalı

idi. Məhəmməd ibn Əbdülvahhab isə öz növbəsində dini lider kimi məşhurlaşdıqdan sonra, ibn Səudu Nəcdin valisi təyin etməyə söz verir. Bütün bədbəxtliklər də elə buradan başlayır. Beləliklə, onun fətvalarına əsasən, onun dini nəzərlərini və batil əqidəsini qəbul etməyən hər bir müsəlman, kafir (hərbi kafir) sayılaraq qanı, malı və namusu halal elan olunur, qarət edilərək mənimsənilirdi. İbn Saudun silahlı quldur dəstələri bu fətvanın əsasında muxtəlif məntəqələrdə yaşayan müsəlmanlara hücum edərək, onları amansızcasına qətlə yetirir, arvad-uşaqlarını əsir tutur və malllarını qarət edirdilər. Elə bu səbəbdən də, qısa bir müddət ərzində, ibn Səudun işğal etdiyi Dəriyyə şəhəri yoxsulluqdan qurtularaq ən varlı şəhərlərdən birinə çevrildi.[1]

Alusi ibn Bişr Nəcdinin dilindən belə rəvayət edir: «Mən Dəriyyə əhalisinin ağır güzəran keçirməyinin şahidi idim. Sonralar bu şəhər ibn Səudun vaxtında çox dəyişdi. Camaat çoxlu mal-dövlətə, bəzəkli əşyalara, cins atlara və bahalı paltarlara sahib olmuşdu. Onları bu sözlərlə ifadə etməyə qüdrətim çatmaz. Öz gözümlə şəhər bazarlarının birində kişilərin bir tərəfdə, qadınların başqa bir tərəfdə qızıl, gümüş, silah, dəvə, qoyun, at və hər növ ərzaq məmulatlarının alıb-satdığının şahidi oldum».[2]

Beləliklə, ibn Səudun birbaşa hərbi dəstəsi sayəsində Nəcd vilayətinin mərkəzi sayılan Ər-Riyaz şəhəri Məhəmməd ibn Əbdülvahhab başçılığı ilə fəth edilir. Hər kəs onun əqidəsini qəbul etməyə məcbur idi, əks təqdirdə isə, o, öldürülür və mal-dövləti qarət edilirdi. Onun tərəfdarları təkcə Əhsa şəhərində

[1] Ziya Yorcukən, «Vəhhabilik» səh. 61-63.
[2] «Vəhhabilik» Cəfər Sübhani, səh. 18.

Fusul qəsəbəsində üç yüz kişini öldürüb, var-yoxunu qarət etdilər.[1]

Vəhhabilər 1754-cü ildə Hüreymiləni, 1757-ci ildə Mərfuxə və Büreydəni, 1767-ci ildə Vəşm və Südeyri, 1784-ci ildə Yəmənə və Silmiyyəni, 1787-ci ildə isə Dəvasir vadisini ələ keçirdilər. İbn Səud 1766-cı ildə öldü və oğlu (ya qardaşı) onu əvəz etməyə başladı. Şeyx Məhəmməd 1786-cı ildə dünyasını dəyişdi. Onun sanki irs qoyub getdiyi inhiraf və fəsadla dolu əqidə və xoşagəlməz əməllərinin qorxunc nəticələrini zaman keçdikcə biruzə verirdi. Belə ki, öz müsəlman qardaşlarını heç bir əsas olmadan müşrik, kafir ittihamı ilə qətlə yetirən vəhhabilər illər keçdikcə, daha dəhşətli faciələr yaratmağa başladılar. Onlar 1790-cı ildən başlayaraq Məkkəyə aramsız hücumlar edir, müsəlmanları kütləvi surətdə qətlə yetirir, hətta balaca südəmər uşaqlara, aciz qarılara da rəhm etmirdilər. Quran hafizləri (əzbərçiləri), namaz qılan halda olan insanlar, məscidlərə pənah aparanlar, bir sözlə, heç bir kəs onların qılıncından öz canını qurtara bilmirdi. Məhz bu səbəbdən də dövrdə başqa məzhəblər vəhhabilərin kafir olma hökmünü çıxarmışdılar.[2]

«Vəhhabilər bu yürüşlər zamanı 30 min baş dəvə, 200 min baş qoyun-keçi ələ keçirmişdilər».[3]

1795-ci ildən başlayaraq müqəddəs Nəcəf və Kərbəla şəhərləri vəhhabilərin hədəfinə çevrildi. Onlar 20 minlik qoşunla Nəcəfə, sonra isə Kərbəlaya hücum etdilər. «Qədir-Xum» bayramı günü gözlənilmədən Kərbəlaya hücum edən vəhhabilər, orada beş mindən çox (20 minə kimi də qeyd olunub) günahsız

---

[1] «Vəhhabilik» səh. 19; «Tarixül-məmləkətil-Ərəbiyyətis-Səudiyyə» cild 1, səh. 51.

[2] «Fərəcus-Sadiq» səh. 126.

[3] «Vəhhabilik» səh. 11 (ön söz).

insanı qətlə yetirdilər. 1802-ci il, mayın 13-də yenidən hücum edən vəhhabilər, İmam Hüseyn (ə)-ın qəbrini və oraya hədiyyə edilmiş qiymətli əşyaları qarət etdilər. Onlar qarət etdikləri şeyləri 200 dəvəyə yükləyərək apardılar. Maraqlıdır ki, bu hücum üçün məhərrəm ayının 10-cü günü (Aşura) münasib görülmüşdü.[1]

Burada iki əsas nöqtəyə diqqət etmək lazımdır: Vəhhabilər nə üçün Aşura günü Kərbəlaya hücum etdilər?

1. Çünki Aşura günü Kərbəla tam əzadarlıq mərasimlərinə bürünmüşdü və bu da onların fasid əqidələrinə əssən haram və küfr sayılır. Həmçinin bu gündə orada olan müsəlmanların hamısı əzadarlığa məşğul olduğu üçün özlərini müdafiə edə bilməyəcəkdilər, elə buna görə də, vəhhabilər beş mindən çox silahsız və günahsız müsəlmanı qətlə yetirə bildilər. Bu da, onların necə də qanicən olduqlarından xəbər verir.

2. Bütün dünya müsəlmanları bilir ki, Peyğəmbər (s) Məhərrəm ayında vuruşu başlamağı haram etmişdir. Amma vəhhabilər gözlənilmədən hücum edərək, döyüşün haram olduğu bu ayda müsəlmanları qətlə yetirdilər.

Nəhayət, vəhabilər 1803-cü ildə Məkkəni ələ keçirdilər. Məscid və minbərləri dağıtdılar. Bu müqəddəs şəhərdəki ən böyük səhabələrin qəbirləri və bir çox tarixi abidələr də yerlə-yeksan edildi. Hətta Peyğəmbər (s)-ın həyat yoldaşı Xədicənin (s.ə) də qəbri tamamilə dağıdıldı.[2]

Məhəmməd ibn Əbdülvahhabın davamçıları 1805-ci ildə Mədinəni də aldılar. Mədinə əhalisi zorla, qılınc gücünə Səud ibn Əbdüləzizə beyət etdi. Oranın fəthindən sonra o, dedi: «Sizin

---

[1] «Yeni şəfəq» səh. 4; «Tarixül-məmləkətil-Ərəbiyyətis-səudiyyə» cild 1, səh. 51; «Miftahul-kəramə» cild 7, səh. 653; «Hədiqətüs-səyahət» səh. 427; Krond Larousse vəhhabites. Tarixi 19 64, səh. 912; «Tarixe-Kərbala» səh. 46.

[2] «Risalətül-ovraqül-Bəğdadiyyə» səh. 16-19; «Vəhhabilik» (ön söz) səh. 9-10.

babalarınız, əcdadlarınızın hamısı müşrik və kafir idi. Onlar imansız öldülər. Siz isə bu gün mənə beyət etməklə müsəlman oldunuz!», daha sonra isə Peyğəmbərin (s), Həzrəti Əli (ə)-ın, Fatimənin (s.ə) evləri yerlə-yeksan edildi. 1923-cü ildə isə onlar Peyğəmbərin əmisi oğlu ibn Abbasın, nəvələri İmam Həsən (ə) və İmam Səccad (ə), İmam Baqir (ə) və İmam Cəfər Sadiqin (ə) məqbərələri və başqa məşhur səhabələrin, şəhidlərin də qəbirlərini dağıdıldı.[1]

Tanınmış fransız şərqşunası Anri Massenin yazdığına görə, «Onlar Mədinəni alıb, Peyğəmbərin (s) qəbrini murdarladılar».[2]

1850-ci ilin martın 1-də Misir valisi Kazalaqlı Mehlit, Əli Paşa oğlu Əhməd Tosunu qoşunla dolu gəmilərlə Yakboli limanına göndərdi. Əvvəlcə o, məğlub olsa da (bəzi mənbələrə əsasən şəhid oldu) sonra onun qardaşı İbrahim Paşa daha böyük və qüdrətli qoşunla Məkkəyə daxil olaraq, Abdulla ibn Səudu əsir götürərək vəhhabiləri məğlub etdi. 1818-ci ildə İstanbulda Şeyxülislam Mustafa Asim Əfəndinin fətvası ilə Abdullah ibn Səud edam olundu. Onun zəhməti hədər getdi. Çox keçmədi ki, İngiltərə və Fransa dövlətlərinin hərbi müdaxiəsi və iqtisadi (maddi) dəstəyi nəticəsində vəhhabilər yenidən dircələrək öz dövlətlərini yaratdılar.

## Vəhhabilərin batil (yanlış) əqidələri

1. Müqəddəs insanların qəbirlərinin ziyarət edilməsi haram və şirkdir.

---

[1] «Yeni şəfəq» səh. 10; «Tarixül-məmləkətil-Ərəbiyyətis-səudiyyə» cild 1, səh. 96; «Cəziratül-ərəb fil-qərnil şirin» səh. 342.

[2] «İslam» səh. 222, 1992-ci ilin çapı.

2. Bayram və əzadarlıq mərasimləri (xüsusilə də, Peyğəmbər (s) və onun pak Əhli-beytinə (ə) keçirilən mərasimlər) bidət və şirkdir.

3. Namaz qılarkən möhürə alının qoyulması haram və şirkdir.

4. Qəbirlərin təmir edilməsi, məqbərə, başdaşı qurulması şirkdir.

5. Peyğəmbər (s)-a və İmamlara təvəssül etmək haram və şirkdir.

6. Allahdan qeyrisinə and içmək haram və küfrdü.

7. Əylənmək, calğı dinləmək, qəsidə-şeir oxumaq, təsbehlə zikr demək, qurban kəsmək, şirk və şəfaət diləmək haram və küfrdür və s.

8. Əhli-beyt (ə) sevgisini danışmaq, matəmində ağlamaq, imamları məsum saymaq, onlardan və Peyğəmbərdən (s) şəfaət diləmək haram və küfrdür və s.

Yadda saxlamaq lazımdır ki, bu qanunlara əməl etməyən hər bir müsəlman, vahhabilərin əqidəsinə görə kafir və müşrik sayılır, qanı, malı və namusu halal bilinir.

Unutmaq olmaz ki, vahhabilərin bu əqidələrinə əməl etmədikləri üçün Məhəmməd ibn Əbdülvəhhab «Kəşfuş-şubəhat» adlı məqaləsində 24 dəfə bütün müsəlmanları (öz təfəfdarlarından başqa) müşrik adlandırmışdır. 20 dəfə bütün müsəlmanları kafir, bütpərəst, mürtəd, Allahın düşməni adlandırmışdır.[1]

[1] «Ər-risalətül əməliyyə» səh. 19, Məhəmməd ibn Əbdülvəhhab; «Tənəhirül-etiqad» səh. 7-35; Sənani, «Fəthül-məcid» səh. 40-41.

## Vəhhabilərin əqidələrinin şərhi rəddi

Burada əvvəlcə bəzi umumi məlumatları qeyd etmək yerinə düşərdi:

**1.** Vəhhabilərin küfr, şirk saydığı bu əqidələr, onların əksinə olaraq bütün müsəlman məzhəbləri arasında heç bir qəbahəti olmayan, savabı sayılan əməllərdir.

**2.** İslam dini uca Tanrının bəşər övladına bəxş etdiyi rəhmət və mərhəmət dinidir. Qurani-Kərimin hər surəsinin «Rəhimli və mərhəmətli Allahın adı ilə» başlanması da Allah-Təalanın bəşərə rəhmət dolu bir din göndərdiyindən xəbər verir.

Mənəvi gözəlliklərlə dolu olan İslam Peyğəmbərinin (s) həyatına baxdıqda da onun insanlarla rəftarının tam səmimiyyət, rəhmət və mərhəmət üstündə qurulduğunun şahidi oluruq. Elə bu səbəbdən də insanlar İslam dininə böyük həvəslə üz tuturdular. Qurani-Kərim bu barədə buyurur:

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ ۖ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ ۖ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ

***«Allahın sənə etdiyi mərhəmətə görə onlarla mehriban oldun. Əgər daşürəkli olsaydın hamı ətrafından dağılardı. Camaatı bağışla və onların (Allah yanında) bağışlanmaları üçün dua et».***[1] Peyğəmbər (s) heç vaxt müharibəyə başlamadı və heç kimi zorla müsəlman etmədi. Keçirdiyi döyüşlər də, ya məcburiyyət qarşısında qalaraq, ya da qarşı tərəfin xəyanətini anladıqdan sonra baş verdi. O, öz dinini «Ərəb»in

لَا إِكْرَاهَ فِي الدِّينِ

[1] «Ali-İmran» sürəsi, ayə 159.

***«Dinində məcburiyyət yoxdur!»*** [1] şüarı ilə təbliğ edən Allahın elçisi, bütün dinlərin nümayəndələrilə həmişə elmi-məntiqi tərzdə rəftar edirdi. Peyğəmbərin (s) dini heç vaxt radikal olmamış, insanların hər hansı bir səhvini həmişə bağışlamağa çalışmışdır. Bir sözlə, o, Allahın «rəhmət dininin» mərhəmətli Rəsulu idi. O, bütün müsəlmanlara ən gözəl bir nümunə sayılır: «Amma vahhabilərin vəhşi hərəkətləri, heç bir məntiqə sığmayaraq, daim tarixdə nifrət oyatmış və oyadacaqdır». Lütorb Sadodart yazır: «Vahhabilər inadkarlıqda həddi aşmışdılar. Bəzi qərb tənqidçiləri də onların əqidələrini oxuduqda, İslamı «zamanla uyğunlaşmayan və cəmiyyətin əhval-ruhiysinə zidd olan din» adlandırıblar. («Vəhhabilik»)

**3.** İslam dünyasının sünnü və şiə alimləri həmişə vəhhabi əqidələrilə mübarizə aparmış, onların əqidələrini dində misli görünməmiş təhrif, inhiraf və bidət saymışlar. Hətta Məhəmməd ibn Əbdülvəhhabın atası və qardaşı onun əleyhinə kitablar yazmışlar.

***Tofiq Əsədov***

[1] «Bəqərə» sürəsi, ayə 256.

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا

***«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!»***[1]

[1] «Əhzab» surəsi, ayə 21.

# ÖN SÖZ

## KİTAB VƏ SÜNNƏTİN MƏHVƏRİNDƏ VƏHDƏT

***Əlhəmdu lillahi rəbbil-aləmin, Vəssəlatu vəssəlamu əla Muhəmmədin və Alihit-tahirin, vəssəlamu əla əshabil-bərrətil-məyamin.***

Biz müsəlmanlar hamımız, aramızda olan ixtilaflı məsələləri əsas götürüb daxildə çəkişmələrə başladıq. İslam düşmənləri isə xaricdən bizə məlum olmayan vasitələrlə vəhdətimizə təfriqə salıb şövkətimizi zəiflətdilər. Belə ki, özümüzü müdafiə etmək qabiliyyətimiz qalmadı, bizə qələbə çaldılar. Halbuki, Allah-Təala buyurmuşdur:

وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَلَا تَنَازَعُوا فَتَفْشَلُوا وَتَذْهَبَ رِيحُكُمْ ۖ وَاصْبِرُوا ۚ إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

***«Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbr edin, çünki Allah səbr edənlərlədir!»***[1]

Doğrudan da:

وَمَا أَصَابَكُمْ مِنْ مُصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَنْ كَثِيرٍ

***«Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların ucbatındandır! Allah (günahlarınızın) çoxunu əfv edər».***[2]

---

[1] «Ənfal» surəsi, ayə 46.
[2] «Şura» surəsi, ayə 30.

Deməli, ən doğru əməl odur ki, bu gün və hər zaman «Kitaba (Qurana) və sünnətə» qayıdıb öz vəhdətimizi Kitab və sünnətin məhvərində quraq. Belə ki, Tanrı buyurub:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ ۖ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ۚ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

***«Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır».***[1]

Biz də bu silsilə kitablarda, Kitab və sünnətə müraciət edərək ixtilafa səbəb olan məsələlərin həlli üçün yolumuza işıq salacaq vəsiləni Kirab və sünnətdə alırıq. Ümidvarıq ki, bu iş Tanrının izni ilə yenidən birliyimizi bərpa etmək üçün yetərli vasitə olsun.

Ümid edirəm ki, İslam alim və mütəfəkkirləri bu meydanda bizə yoldaş olacaq, öz rəy və nəzərlərini bizə göndərəcəklər.

---

[1] «Nisa» surəsi, ayə 59.

# BİRİNCİ HİSSƏ

## PEYĞƏMBƏRİN VƏFAT EDƏN ŞƏXS ÜÇÜN AĞLAMASI VƏ BU İŞƏ TƏŞVİQ ETMƏSİ BARƏDƏ RƏVAYƏTLƏRİ

### 1. Peyğəmbərin (s) Səd ibn Übadənin xəstələnməsinə ağlaması:

Müslimin «Səhih» kitabında Abdullah ibn Ömərdən nəql olunan rəvayətdə o, deyir: - Səd ibn Übadə xəstələnmişdi, Allahın Rəsulu (s) ona baş çəkmək üçün Əbdürrəhman ibn Övf, Səd ibn Əbi Vəqqas, Abdullah ibn Məsudla birlikdə onun görüşünə getdilər. Onun yatağına yaxınlaşdıqda bayıldığını gördülər (hüşunu itirmişdi). Peyğəmbər (s) buyurdu: - O, dünyasını dəyişibdir? Dedilər: - Xeyr ey Allahın Rəsulu (s). Peyğəmbər ağladı. Camaat onun bu halını görüb ağlamağa başladılar. Buyurdu: - Eşitməyibsiniz ki, Allah ağlar göz sahibinə əzab verməz, həmçinin kədərlənmiş şəxsə də. Lakin buna görə - əli ilə dilinə işarə edib - əzab edəcək və ya bağışlayacaq».[1]

### 2. Peyğəmbərin (s) öz övladı İbrahim üçün ağlaması.

«Səhihi Buxari», «Səhihi Müslim», «Sünəni ibn Davud» və «Sünnəni ibn Macedə» (bu kirablarda) Ənəs ibn Malikdən nəql olunan rəvayətdə o, deyir: - Allahln Rəsulu (s) ilə (evə) daxil olduq... İbrahim can verirdi. Peyğəmbərin (s) gözlərindən yaş

---

[1] «Səhih» Müslim, kitabul-cənaiz səh. 636.

axmağa başladı. Əbdürrəhman ibn Övf dedi: - Ey Allahın Rəsulu! Siz də...!?

Peyğəmbər (s) buyurdu: - «Ey Övfun oğlu. Bu bir rəhmətdir». Sonra əlavə etdi: - «(Düz görürsən) Gözlər giryandır, qəlbdə kədərli. Lakin, qətiyyən - Tanrını razı salacaq şeydən savayi bir söz dilimizə gətirmərik. Ey İbrahim, həqiqətən sənin ayrılığın bizə kədərləndirdi».[1]

Bu rəvayət «Sünnəni ibn Mace»də belə yazılıb: - Ənəs ibn Malik deyir: - Elə ki, Allahın Rəsulunun (s) oğlu İbrahim canını tapşırdı, Peyğəmbər (s) orda olanlara dedi: «Onu hələ kəfənə bükməyin qoyun (son dəfə olaraq) onunla görüşüm». Sonra onun balışına yaxınlaşıb, ona tərəf əyilərək ağladı.[2] «Sünnəni Tirmizi»də belə nəql olunub: Cabir ibn Abdullah deyir: - Peyğəmbər (s) Əbdürrəhman ibn Övfun əlindən tutub onunla birlikdə oğlu İbrahimin yastığına yaxınlaşdı. Canvermə halında olan uşağı qucağına alıb dizinin üstünə qoyaraq ağlamağa başladı. Əbdürrəhman ibn Övf dedi: - Siz ağlayırsınız? Məgər siz deyildinizmi bizi ağlamağa qoymayan? Peyğəmbər (s) buyurdu: «Xeyir mən iki dəstənin, günahkar axmaqların və səfeylərin ahu-fəğan və fəryad etməsindən çəkindirmişdim sizi. Çünki, onlar müsibət gördükdə, üzlərini və yaxalarını çırır, şeytani nalələr çəkirlər».[3]

### 3. Peyğəmbərin (s) öz nəvəsi üçün ağlaması.

«Səhihi Buxari», «Səhihi Müslim», «Sünəni ibn Davud» və «Sünnəni Nəsai»də rəvayət edirlər: - Peyğəmbərin qızı o cənaba

---

[1] «Səhihi Müslim» cild 4, səh. 1808; «Sünəni ibn Davud» cild 3, səh. 193; «Sünnəni ibn Mace» cild 1, səh. 507; «Səhih Buxari» cild 1, səh. 158.
[2] «Sünnəni ibn Mace» cild 1, səh. 473, cənaiz kitabı.
[3] «Sünnəni Tirmizi» cild 4, səh. 226, cənaiz kitabı.

xəbər göndərir ki, - Bizə gəlsin oğlum əlimdən gedir. Peyğəmbər durub Səd ibn Übadə və əshabından bir necə nəfərlə birlikdə onun evinə geldilər. Tövşüyərək can verən halda olan uşağı o Həzrətin yanına gətirdilər. Peyğəmbərin (s) gözlərindən yaş axmağa başladı. Səd dedi: Ey Allahın Rəsulu! Mən nələr görürəm!?

O Cənab (s) buyurdu: «Bu, (ağlamaq) Allahın bəndələrin qəlbinə qoyduğu bir rəhmət və ütufətdir və Tanrı təkcə öz rəhimli, mehriban bəndələrinə rəhm edib bağışlayacaqdır».[1]

**4. Peyğəmbərin (s) əmisi üçün Həmzə ağlaması.**

İbn Sədin «Təqabət», Vaqidinin «Məğazi», Əhmədin «Müsnəd» və xüləfa məktəbinin digər kitablarında rəvayət olunur: Allahın Rəsulu (s) Ühud döyüşündən sonra Ənsara məxsus evlərdən öz şəhidlərinə çəkdikləri ah-nalə səslərini eşitdikdə gözləri yaşla doldu, ağlayaraq buyurdu: «Amma Həmzəyə ağlayan bir kimsə yoxdur!» Səd ibn Məaz bu sözü eşitcək Bəni-Əbdüləşhəl qəbiləsi qadınlarının yanına gedib onları (Peyğəmbərin yanına, ona başsağlığı vermək və Həmzəyə ağı demək üçün) dəvət etdi. Peyğəmbər (s) onlara dua edərək yola saldı. Bu hadisədən sonra Ənsar qadınlarından heç biri Həmzəyə göz yaşı tökməmişdən qabaq öz ölülərini ağlamazdılar.[2]

---

[1] «Səhihi Buxari» cild 4, səh. 3 və 191; «Səhihi Müslim» cild 2, səh. 636, «Sünəni ibn Davud» cild 3, səh. 193, hədis 3125 cənaiz kitabı; «Sünəni Nəsai» cild 4, səh. 22; «Müsnədi ibn Əhməd» cild 5, səh. 204, 206 və 207.

[2] «Təbəğat ibn Səd» cild 3, səh. 11; «Məğazi» Vaqidi cild 1, səh. 315-317; «Müsnədi ibn Əhməd» cild 2, səh. 40; «Tarixi Təbəri» cild 2, səh. 163; «Sireyi ibn Hişam» cild 3, səh. 50; «Usdul-Ğabə»də İbn Əsir, Həzrət Həmzənin şərhi halında ixtisarla vermişdir.

**5. Peyğəmbərin (s) Mutə döyüşündə şəhid olanlara ağlaması:**

«Səhihi Buxari»də rəvayət olunur: Peyğəmbər (s), Zeyd, Cəfər və İbn Rəvahənin (necə şəhid olmalarını) hələ onların xəbəri gəlib çatmamışdan öncə, camaata təsvir edərək buyurdu: «Zeyd bayrağı qaldırdı, zərbə alaraq şəhid oldu! Sonra Cəfər bayrağı əldə aldı. O, da şəhid oldu! Ondan sonra isə bayrağı İbn Rəvahə götürdü və şəhid oldu». Peyğəmbər (s) bu sözləri buyurduğu vaxt gözlərindən yaş axırdı!»[1]

**6. Peyğəmbərin (s) Cəfər ibn Əbu Talibi ağlaması:**

«İstiab»da, «Usdul-Ğabə»də, «Əsbabə»də, İbn Əsirin «Tarix»ində və Xüləfa məktəbinin digər kitablarında olan bir rəvayətin qısa məzmunu belədir:

«Cəfər və əshabı şəhadətə çatandan sonra, Allahın Rəsulu (s) onun evinə təşrif apardı, onun övladlarını yanıına çağırdı, gözlərindən yaş axan halda onları qoxuladı, (nəvaziş göstərdi). Cəfərin zövcəsi Əsma dedi: - Atam-anam sizə fəda olsun, sizi nədir ağladan? Olmaya, Cəfərdən və yoldaşlarından sizə bir xəbər çatıbdır? Peyğəmbər (s) buyurdu: «Bəli bu gün şəhid oldular». Əsma deyir: «Mən yerimdən durub nalə çəkdim, qadınları ora yığdım. (Sonra) Fatimənin evinə daxil olandan, gördüm ki, o, ağlayaraq deyir: Vay əmim! Peyğəmbər (s) (bunu

---

[1] «Səhih Buxari» cild 2, səh. 204; «Əlbidayətu vən-nihayə» İbn Kəsir cild 4, səh. 255; «Sunənul-Kubra» cild 4, səh. 70; «Ənsabul-Əşraf» cild 2, səh. 43; «Şərhu Nəhcül-bələğa» İbn Əbil-Hədidin cild 15, səh. 73.

gördükdə) buyurdu: «Həqiqətən ağlayanlar gərək Cəfər misalında olanlara ağlayalar».[1]

### 7. Peyğəmbərin (s) anası Amənənin qəbri üstə ağlaması:

«Səhih Müslim», «Müsnədi Əhməd», «Sünəni Əbi Davud», Nisai və ibn Macedə rəvayət olunur:[2] - «Əbu Hüreyrə deyir: - Peyğəmbəri-Əkrəm (s) anasının qəbrini ziyarət etdi və ağladı, yanındakıların hamısını da ağlatdı».[3]

---

[1] «Tarixi ibn Kəsir» cild 2, səh. 90 və yuxarıda deyilən kitablarda Cəfəri Təyyarın şərhi halı.

[2] Bu ibarə Müslimin «Səhih»indən götürülübdür.

[3] «Səhih Müslim» cild 2, səh. 671, kitabul-cənaiz, hədis 108; «Müsnədi ibn Əhməd» cild 2, səh. 441; «Sünən Nəsai» cild 4, səh. 90; «Sünnəni ibn Macə» cild 1, səh. 501, hədis 1572.

# İKİNCİ HİSSƏ

## PEYĞƏMBƏRİN (S) MÜXTƏLİF HƏDİSLƏRDƏ NƏVƏSİ HÜSEYNƏ (Ə) AĞLAMASI

### 1. Ümmül-Fəzl hədisi:

«Müstədrək Səhiheyn»də, «Tarix İbn Əsakir»də, «Məqtəli Xarəzm»də və xüləfa məktəbinin digər kitablarında belə yazılıbdır: - Harisin qızı Ümmül-Fəzldən rəvayət edirlər ki, o Allahın Peyğəmbərinin (s) hüzuruna gedib dedi: - Ey Allahın Rəsulu! Gecən gecə mən, xoşagəlməz bir yuxu gördüm! Buyurdu: «Nə görmüsən?» Dedi: - Çox çətindir! Buyurdu: «Nə idi?» Dedi: - Gördüm ki, elə bil sizin bədəninizdən bir tikə qopur və mənim ətəyimdə qərar tapır! Allahın Rəsulu buyurdu: «Yaxşı bir şey görübsən; Fatimə - inşallah - bir oğlan dünyaya gətirəcək və sənin qucağına qoyulacaq». (O xanım deyir): Ondan sonra, Peyğəmbərin buyurduğu kimi – Fatimə, Hüseyni dünyaya gətirdi və onu mənim qucağıma qoydular. Bir gün Allahın Rəsulunun (s) yanına getdim, Hüseyni Həzrətin qucağına qoydum. Bir az sonra diqqəti məndən yayındı. Birdən gördüm qəfildən Peyğəmbərinin (s) gözündən sel kimi yaş axır! Dedim: - Ey Allahın Nəbisi! Atam-anam fədanız olsun, sizə nə oldu!? Buyurdu: «Cəbrail əleyhis-səlatu vəssəlam görüşümə gəldi və mənə xəbər verdi ki, ümmətim tezliklə bu balamı öldürəcəkdir». Dedim: - Bunu!? Buyurdu: «Bəli, o, (hətta) mənim üçün onun qızarmış torpağından da bir` qədər gətirmişdi». «Müstədrəki Səhiheyn» kitabının müəllifi Hakim deyir: «Bu hədis Şeyxeynin

(Buxari və Müslim nəzərdə tutulur) şərtlərilə səhih (doğru) hədisdir, lakin öz kitablarında gətirməyiblər».[1]

**2. Zeynəb bint Cəhəşin rəvayəti:**

İbn Əsakirin «Tarix»ində, «Məcməuz-zəvaid»də, «Tarix İbn Kəsir»də və xüləfa məktəbinin digər kitablarında[2] rəvayət edirlər ki, Zeynəb deyib: - Günlərin birində Allahın Rəsulu (s) mənim evimdə idi, mən də təzə yeriməyə başlayan Hüseyni saxlayırdım. Bir anlığa ondan qafil oldum və o, Allahın Rəsulunun (s) yanına getdi. Peyğəmbər buyurdu: «Onu rahat burax» - sonra o qadın dedi: - «Sonra əlini yuxarı qaldırdı. Peyğəmbər (s) namaz qıldı; ondan sonra dedim: - Ey Allahın Rəsulu! Mən bu gün sizdən bir iş müşahidə etdim ki, indiyə qədər görməmişdim?!» Buyurdu: «Cəbrail mənim yanıma gəlib mənə xəbər gətirdi ki, ümmətim bunu (övladımı) öldürəcəkdir». Dedim: «Onda torpağını mənə göstər və o da qırmızı rəngli bir türbət gətirdi».[3]

**3. Aişənin rəvayəti**

«Tarixi ibn Əsakir»də, «Məqtəl»i Xarəzmidə, «Məcməuz-zəvaid»də və xüləfa məktəbinin digər kitabları Əbisələməh bin

---

[1] «Müstədrək Səhiheyndə» cild 3, səh. 176, bir qədər ixtisarla səh. 179-da; «Tarix İbn Əsakir» hədis 631; «Məcməuz-zəmaid»də cild 9, səh. 179, «Məqtəli» Xarəzmidə cild 1, səh. 159 və 162; «Tarix İbn Əsir» cild 6, səh. 230; «Əmali»yi Şəcəridə səh. 188, İbn Səbbağ Malikinin «Füsulul mühümmə»sində səh. 145, «Rəvzun-nəzir»də cild 1, səh. 89; «Səvaiq», «Kənzul-ummal» və s. kitablarda gəlib.

[2] Bu təbir «Tarix İbn Əsakir»dən götürülüb.

[3] «Tarixi İbn Əsakir», İmam Hüseyn (ə) şərhi halı bölməsi, hədis 629; «Məcməuz-zəvaid» cild 9, səh. 188; «Kənzul-ummal» cild 8, səh. 199.

Əbdürrəhmandan o isə Aişədən rəvayət edir ki, Aişə deyib:[1] «Elə ki, Allahın Rəsulu (s) Hüseyni öz dizi üstə əyləşdirdi, Cəbrail onun yanına gəlib dedi: «Bu sənin övladındır?» Buyurdu: «Bəli». Dedi: «Amma ümmətin tezliklə - səndən sonra – onu öldürəcəkdir». Peyğəmbərin gözləri yaşla doldu. Cəbrail dedi: - İstəsən öldürələcəyi torpağı sənə göstərərəm. Buyurdu: «Bəli, göstər». Cəbrail də, Təf (Kərbəla) vilayətindən bir torpağı o Həzrətə göstərdi».

Başqa yerdə isə bir qədər fərqli rəvayət olunur: «Cəbrail İraqda Təf deyilən vilayətə tərəf işarə edib oradan qızarmış torpaq götürərək ona (Peyğəmbərə) göstərdi və dedi: «Bu onun qətlgahının torpağıdır».[2]

## 4. Ümmü Sələmənin (bu xanım Peyğəmbərin (s) ən möhtərəm zövcələrindən biridir) rəvayəti

Bu şəxs nəql edir:

- Ümmü Sələmə (Allah ondan razı olsun), mənə xəbər verdi ki: - Bir gecə Peyğəmbər (s) yatmaq üçün yatağına uzandı (azca) sonra pərişan halda oyandı, sonra yenidən yatıb yuxuya getdi. Dübarə oyandıqda onu artıq əvvəlki qədər qanı-qara görmədim. Sonra yenə yatdı. Oyandıqda əlində olan qırmızı rəngli torpağı öpürdü. Ərz elədim: Ey Allahın Rəsulu (s), bu torpaq nədir? Buyurdu: «Cəbrail mənə xəbər verdi ki, (Hüseyn (ə)) İraq torpağında qətlə yetiriləcəkdir. Cəbrailə dedim: «Öldürüləcəyi

---

[1] Bu təbir «Məqtəl»i Xarəzmidən götürülüb. Bu barədə başqa rəvayətlər də vardır ki, mələklər Peyğəmbərə (s) İmam Hüseynin (ə) şəhadəti barədə xəbər verməsini təsdiq edir.

[2] İbn Sədin «Təbaqat» kitabı hədis 269; «Tarixi İbn Əsakir» hədis 627; «Məqtəl»i Xarəzmi cild 1, səh. 159; «Məcməuz-zəvaid», «Kənzul-ummal», Süyutinin «Xəsais» və s. kitablar.

yerin torpağını mənə göstər. Məndəki (bu gördüyün) torpaq elə oranın torpağıdır».

«Müstədrək»in müəllifi Hakim deyir: Bu hədis Şeyxeynin (Buxari və Müslim) şərtləri ilə səhih hədisdir, amma onu öz kitablarında göstərməyiblər».[1]

**5. Ənəs ibn Malikdən hədis**

Ənəs ibn Malik rəvayət edir ki: «Mələklərin içindən «Qətər» adlı bir mələk, öz Pərvərdigarından Peyğəmbərlə (s) görüşə gəlməyə icazə istədi. Tanrı ona izn verdi. O mələk Ümmü Sələmənin növbəsi günündə daxil oldu. Peyğəmbər (s) Ümmü Sələməyə buyurdu: «Muğayət ol ki, bir adam bizim məclisimizə daxil olmasın». O, qapı ağzında olduğu vaxt, qəflətən Hüseyn ibn Əli (ə) ora gəlib qapını açıb içəri daxil oldu. Peyğəmbər (s) onu bağrına basıb çoxlu öpdü. O mələk (Peyğəmbərə (s)) dedi: - Onu sevirsən? Buyurdu: «Bəli». Dedi: «Ümmətin tezliklə onu öldürəcəkdir! İstəyirsənmi onu öldürüləcəyi məkanı sənə göstərim?» Buyurdu: «Bəli, istəyirəm». Ravi deyir: «O mələk onun qətlə yetiriləcəyi məkandan bir ovuc götürüb o Həzrətə göstərdi. Bir qədər sonra (Peyğəmbər) bir miqdar qırmızı qum ya torpaq gətirdi. Ümmü Sələmə onu götürüb öz paltarının cibinə qoydu. Bu hədisin ravisi olan Sabit deyir: - «Biz o vaxt deyirdik - Ora Kərbəladır!». [2]

---

[1] «Müstədrək Səhiheyn» cild 4, səh. 398; «Mucəmul-Kəbir»i Təbarani hədis 55; «Tarixi ibn Əsakir» hədis 629; «Təbəğat ibn Səd»; «Tarixi İslami» Zəhəbi; «Məqtəl»i Xarəzmi; Zəxairul-Uqba, «Tarixi ibn Kəsir» və s. kitablar.

[2] «Müsnədi ibn Əhməd» cild 3, səh. 242-256; «Tarix İbn Əsakir» hədis 615-617; «Mücəmi-Kəbir»i Təbarani, hədis 47; «Məqtəli» Xarəzmi cild 1, səh. 160 və 162; «Tarixul-İslam»i Zəhəbi; «Zəxairul-üqba» və s. kitablar.

# ÜÇÜNCÜ HİSSƏ

## PEYĞƏMBƏRİN (S) AĞLAMAĞI QADAĞAN ETMƏSİ BARƏDƏ OLAN RƏVAYƏTLƏRİN MƏNŞƏYİ

«Səhih Müslim»də və «Sünnəni Nəsai»də Abdullahdan nəql olunur: Həfsə Ömərin (vəziyyətinə) ağladı. Ömər dedi: Sakit ol qızım! Eşitməyibsənmi ki, Peyğəmbər (s) buyurub: «Qohumları meyyitə ağladığına görə, ona əzab verilir!?» [1] Başqa bir rəvayətdə belə deyilir: Ömər deyir: Peyğəmbər (s) buyurdu: «Qəbrdə meyyitə - onun üçün oxunan nöhə və ahu-zara görə əzab verilər».[2]

Başqa bir rəvayətdə: Abdullah ibn Ömər deyir: «Ömər zərbətləndiyi vaxt bihuş oldu. Ona görə də onun üçün ah-şivən qopardılar. Ayılanda dedi: «Allahın Rəsulunun (s) belə buyurduğunu bilmirsinizmi ki: «Meyyitə, dirilər ağladığına görə əzab verilər».

## AİŞƏNİN HƏDİSƏ İSTİDRAKI VƏ ÖMƏRLƏ OĞLUNDAN SƏHVİ DƏF ETMƏSİ

İbn Abbas deyir: - Elə ki, Mədinəyə çatdıq, əmirəl-möminin (Ömər) hələ istirar toplamamışdı ki, zərbətləndi. Sahib (Süheyb): - Vay qardaşım! Vay yavərim! - fəryadı çəkərək onun yatağına yaxınlaşdı. Ömər dedi: «Bilmirsənmi, eşitməyibsənmi ki, Peyğəmbər (s) buyurub: «Qohumların meyyit üçün bəzi ağlamalarına görə ona əzab verilər!?»

---

[1] «Səhih Müslim» cild 2, səh. 639; «Sünnəni Nəsai» cild 4, səh. 18.
[2] «Səhih Müslim» cild 2, səh. 639; «Səhih Tirmizi» cild 4, səh. 222; «Sünnəni ibn Mace» cild 1, səh. 508.

İbn Abbas deyir: - Mən ayağa durdum və Aişənin yanına getdi, baş verənlərdən onu agah etdim. Aişə dedi: - «Allaha and olsun, elə deyil! Allahın Rəsulu (s) qətiyyən buyurmayıb: «Meyyitə bir kəsin ağlamasına görə əzab verilər».

Əksinə belə buyurub: «Allah kafirə, qohumlarının göz yaşı tökməsinə görə əzab verər və Tanrıdır ki, güldürür və ağladır, heç kəs başqasının günah yükünü daşımaz».

Qasım ibn Məhəmməd deyir: - Elə ki, Ömərlə oğlunun söhbəti Aişənin qulağına çatdı, dedi: «Siz mənə elə kəslərdən xəbər verirsiniz, nə yalançıdırlar, nə də aldadan. Lakin (hər halda) adamın birdən qulağı səhv eşidir».[1] Hişam ibn Ürvə öz atasından nəql edərək: - Aişənin yanında deyildi ki, İbn Ömər belə deyib: «Meyyitə, qohumları onu ağladığı üçün əzab verirlər». Aişə dedi: - «Allah Əba Əbdürrəhmanı bağışlasın, bir şey eşidib, yaxşı başa düşməyib, (məsələ belə idi ki:) bir yəhudi şəxsin cənazəsini ağlaya-ağlaya Peyğəmbərin (s) yanında aparanda buyurdu: «Siz ağlayırsınız, ona isə əzab verilir».[2]

İmam Nəvəvi (Hicri 670-ci ildə vəfat edib) «Səhih Müslim»in şərhində Peyğəmbərin (s) ağlamağı qadağan etməsi barədə rəvayətləri haqqında deyir: - «Bu rəvayətlər təkcə Ömərdən və oğlu Abdullahdan gələn rəvayətdir. Aişə onları inkar edib, bunu ikisinin unutqanlığı və səhvi kimi izah etmiş, bu sözü Peyğəmbərin (s) deməsini inkar etmişdir».[3]

---

[1] «Səhih Müslim» cild 9, hədis 22-23; «Səhih Buxari» cild 1, səh. 155-156; «Sünnəni Nəsai» cild 4, səh. 18.

[2] «Səhih Müslim» bab 9, hədis 25; «Səhih Buxari» cild 1, səh. 156 kitabul-cənaiz; «Səhih Tirmizi» bab 25, cild 4, səh. 226 və 227; «Müvəttə» Malik cild 1, səh. 234, kitabul-cənaiz.

[3] «Səhih Müslimin şərhi» İmam Nəvəvi, cild 6, səh. 228, kitabul-cənaiz.

## ALLAHIN RƏSULU (S), ÖMƏRİ AĞLAMAĞI QADAĞAN ETMƏKDƏN ÇƏKİNDİRİR

Sələmət ibn Əzrəq deyir: «Əbu Hüreyrənin belə deməsini eşitdim: - Peyğəmbərin (s) qohumlarından biri dünyasını dəyişdi, qadınlar toplaşıb onunçün ağlamağa başladılar. Ömər qalxıb, onları susdurub və orada qovmağa başladı. Peyğəmbər (s) buyurdu: «Ömər! Onlarla işin olmasın, çünki gözlər yaşlı, ürəklər müsibətə düçar olmuş və sinə dağları təzədir».

«Müsnədi ibn Əhməd»də Vəhəb ibn Keysan Məhəmməd ibn Əmrdən rəvayət edir: - Sələmət ibn Əzrəq Abdullah ibn Ömərlə bazarda əyləşmişdilər. Bu zaman bir dəstə adam əllərində cənazəni ağlaya-ağlaya oradan keçirdilər. Abdullah ibn Ömər bu hərəkəti xoşagəlməz hesab edib onları susdurmağa başladı. Sələmət ibn Əzrəq ona dedi: Belə danışma! Çünki mən özüm şahidəm və Əbu Hüreyrədən də eşitmişəm ki, - Mərvanın qohumu olan bir qadın canını tapşırmışdı, Mərvan isə əmr vermişdi ki, öləni ağlayan qadınları qovsunlar. Cənazənin yanına gələn Əbu Hüreyrə dedi: - Ey Əba Əbdülməlik! Onlardan əl çək, çünki, (bir vaxt) Peyğəmbərin (s) qarşısında cənazə aparırdılar, mən və Ömər ibn Xəttab da o Həzrətin (s) yanında idik. Ömər ağlayaraq cənazənin yanı ilə gedən qadınları qovmağa başladı. Allahın Rəsulu (s) buyurdu: Xəttab oğlu! Onlarla işin olmasın, çünki dərdləri təzə, gözləri yaşlı, canları müsibətə düçar olubdur».[1]

---

[1] «Müsnədi ibn Əhməd» cild 1, səh. 273, 408 və bu məzmuna səh. 333.

## BU RƏVAYƏTLƏRİN MÜQAİSƏSİ VƏ ALINAN NƏTİCƏ

Birinci hissəyə aid olan rəvayətlər isbat etdi ki, ağlamaq - istər can verən adam üçün, yaxud vəfat etmiş adam üçün, istərsə də, şəhid, ya qeyri şəhid qəbri üçün olsun - Peyğəmbərin sirəsindən (davranışlarından) hesab edilir.

İkinci qismə aid rəvayətlər sübut etdi ki, Allahın Rəsulu (s) şəhid övladına (nəvəsi) (Hüseyn (ə)) ağlayıbdır. Bu isbat, o Cənabın (s) Hüseyn (ə) ağlamasını əvvəlki hissəyə bağlayır, beləliklə, ikinci də Peyğəmbərin (s) sirə və sünnəsindən hesab olunur.

Üçüncü qism rəvayətlər isbat etdi ki, Peyğəmbərin (s) ölülərə ağlamağı qadağan edən rəvayətləri yalnız ikinci xəlifənin özü və oğlu Abdullaha aiddir. Aişənin və digər səhabələrin bu sözü təkzib etməsindən bu nəticəni alırıq: İkinci xəlifə ilə oğlu Abdullahın, «Peyğəmbərin (s) meyyitə ağlamamaq barədə qadağası» olan rəvayət səhv və yanlışdır.

Buna görə də, ölüm ayağında olan vəfat etmiş şəxs üçün və yaxud da ölünün qəbri üstə ağlamaq - Peyğəmbərin (s) sirə və sünnəsindəndir. Deməli, İmam Hüseynə ağlamaq da Peyğəmbər (s) sünnəsindən hesab olunur.

## ƏHLİ-BEYTİN MATƏMİNDƏ

Ağlamaq, insanın ən kədərli halından xəbər verir. Bəzi rəvayətlərdə ağlamaq, pakların göxəl sifəti sayılsa da, digər rəvayətlərdə tənqid edilmişdir. Bu, insan qəmginliyi və narahatlığından doğan təbii haldır. Ağlamağın səbəbi həyacan ola bilər. Məsələn, insan uzun müddət həsrətində olduğu şəxslə

görüşərkən ağlayır. Məzhəbi əqidəsinə görə də ağlaya bilər. Bu, təbii və qeyri-iradi hal olduğundan, qarşısını almaq yaxud buna məcbur etmək olmaz. Ağlamağın səbəblərini aradan qaldırmaq olar da, olmaz da.

İmam Hüseyn (ə) ağlamağın mənalarını bilmək üçün yaxşı olar bəzi məqamlara nəzər salaq:

**1. Uşağın ağlamağı:** İnsan həyatı ağlamaqla başlayır. Bu, dünyaya gəlmiş körpənin sağlamlığından xəbər verir. Əslində, ağlamaq onun dilidir.

**2. Həyəcandan ağlamaq:** İllərcə ayrılıqdan sonra övladı ilə görüşənn ananın ağlaması. Bu, adətən şadlıqdan doğur.

**3. Məhəbbətdən ağlamaq:** Məsələn, əsl məhəbbətlə Allaha yaxınlaşmaq üçün tökülən göz yaşları.

**4. Qorxudan ağlamaq:** Allahın əzəməti qarşısında məsuliyyətlərin dərki insanda qorxu yaradır. Bu, mərifət, Allahı tanımaq və nəfsin paklığından doğur.

**5. Peşmançılıqdan ağlamaq:** İnsan keçmişdəki səhvlərə görə peşmançılıqdan göz yaşı axıdır. Bu ağlamağın mənadı tövbə və Allaha doğru qayıtmaqdır.

**6. Məqsədlə ağlamaq:** Məsələn şəhidə ağlamaq şücaət oyadır. İmam Hüseyn (ə) ağlamaq qəlbdə ona məhəbbət yaradır. Kərbəla hadisəsini eşitməklə insan ağlayarsa, İmam məhəbbətindən xəbər verir.

**7. Zəlillik və acizlikdə ağlamaq:** Zəif və acizlər istəyə çata bilmədikdə, ağlamaqdan başqa çıxış yolu tapmırlar.

Bu məqamları sizə xatırlatdıqdan sonra gərək, İmam Hüseynə (ə) ağlamaq hamsındandır. İmam Hüseyn (ə) ağlamaq əlbəttə ki, məhəbbətdəndir. Elə məhəbbət ki, o aşiqlərin qəlbindəndir. Axı, Kərbəla hadisəsi məhəbbət yaradan hadisədir. Kərbəla qəhrəmanlarının alovulu sözlərini eşitmək, gözlərdən qeyri-ixtiyari yaş axıdır.

İmam Hüseyn (ə) ağlamaq, acizlik və zəlilik deyil. Bu, izzət və əzəmətdəndir. Odur ki, İmam Hüseynə (ə) ağlamağın fəziləti haqqında çoxlu rəvayətlər vardır. İmam Sadiq (ə) buyurur: «Müsibət baş verdikdə, bəndə üçün ağlamaq və səbirsizlik məkruhdur (bəyənilmir). Yalnız Hüseyn ibn Əliyə (ə) ağlamağın savabı var».

İmam Hüseyn (ə) ağlamaq və əzadarlığın çox əhəmiyyətli fəzilətləri var:

**1. İmam Hüseyn (ə) məqsədini canlandırmaq:** Ağlamaqla onun məhəbbəti bir daha canlanır. Allah yolunda əmr be-məruf (yaxşılıqlara dəvət etmək) və nəhy əz-münkər (pisliklərdən çəkindirmək) etməsi, İslama böyük, xidmətləri qılblərə həkk olur. Ağlamaqla qəflətdə olanlar, yolunu azanlar ayılırlar. Kərbəla faciəsi kimi bəşəriyyət tarixində baş verən olan ikinci hadisə varmı? Əza saxlamaqla, Kərbəla hadisəsi zehinlərdə canlanır. İmam Hüseynin (ə) məqsədini canlandırmaq, əsl mənada İslamı qoruyub saxlamaqdır.

Qərb alimi Murik Dukberi yazır: «Əgər tarixçilərimiz Aşuranın mahiyyətini anlasaydılar, buna sadə baxmazdılar. Hüseynin (ə) ardıcılları zəlillik və acizliyə baş əyməzlər. Çünki əsas şüarı zülmə baş əyməmək, təslim olmamaqdır. Hüseynin (ə) əzadarlıq məclisində insanların namusu, şərəfi və İslamın əzəməti naminə mübarizəsindən danışılır. O, can, mal və övladından keçdi, amma Yezidə tabe olmadı. Gəlin, biz də şərəflə ölməyi, zəlilliklə yaşamaqdan üstün tutaq».

**2. İmama sonsuz məhəbbət və düşmənlərinə nifrət:** İmam Hüseyn (ə) ağlamaq, vəhy ailəsinə məhəbbət və sadiqliyin aliliyini göstərir. Bu, ona məhəbbəti artırmaqla yanaşı, düşmənlərinə nifrət oyadır. Bəli, İmamın haqqını tanıyaraq ağlamaq, qatillərinə nifrət deməkdir.

**3. Dinin həqiqəti ilə yaxından tanışlıq.** İmam Hüseynə (ə) əzadarlıq məclisinin əsas faydalarından biri də budur ki, camaat İslam həqiqəti ilə dərindən tanış olur. Dinin Quran və Əhli-beytə bağlılığını dərk edir.

**4. Günahların bağışlanması:** Rəyyan ibn Şəbib İmam Rzadan (ə) rəvayət edir: «Ey Şəbibin oğlu, əgər Hüseynə (ə) ağlasan yanaqlarına axan ilk yaşla Allah sənin kiçik və böyük günahlarını bağışlayar».

Başqa yerdə İmam buyurur: «Ağlayanlar heç olmasa, Hüseyn (ə) kimisinə ağlasınlar. Çünki ona ağlamaq, böyük günahların bağışlanmasına səbəb olur».

**5. Behiştə qalmaq:** İmam Baqir (ə) buyurur: «Hüseynin (ə) əzasında ağlayanı Allah Behişt otaqlarının birində yerləşdirər».

İmam Sadiq (ə) buyurur: «Kim Hüseyn (ə) haqqında şeir oxuya, ağlaya, yaxud kimisə ağlada, hər ikisi Behiştdə gedər. Kimin yanında Hüseyn (ə) adı çəkilsə və gözündən damcı da olsa, yaş axarsa, əvəzini Allah Behiştdə qiymətləndirər».

İmam Sadiq (ə) başqa bir yerdə buyurur: «Kim Hüseynin (ə) əzasında ağlasa, yaxud özünü ağlayanlara oxşada, Behişt ona vacib olar».

**6. Şəfa tapmaq:** İmamın əza məclislərinin bərəkətlərindən biri də şəfa tapmaqdır. Dəfələrlə eşitmişik ki, Hüseyn (ə) əza saxlayanların bəziləri şəfa tapıb. Böyük müctehid, mərhum Ayətullah üzma Bürucerdi 90 yaşında gözləri sağlam, eynəksiz kitab oxuyurdu. Mərhum alim belə söyləyir: «Bir vaxt, Bürucerd şəhərində yaşayırdım. Güclü göz ağrısına düçar olmuşdum. Müalicənin faydası olmadı. Get-gedə ağrı artırdı. Məhərrəm ayı çatdıqda, əzadarlıq məclisinə gedirdim. Müxtəlif yerlərdən dəstə-dəstə camaat məclisə gəlirdi. Dəstələrdən biri məclisə daxil olanda, sanki mənəviyyət işığı gücləndi. Mən də kənarda oturub ağlayırdım. Bu vaxt həmin dəstənin ayaq tozundan

götürüb gözümə çəkdim. Gözlərim sağaldı. İndi görmə qabiliyyətim də artıb. İmam Hüseynin (ə) bərəkətindən, hətta eynəyə də ehtiyac yoxdur».

**7. Hüseynə (ə) ağlayan, qiyamət günü ağlamaz:** Rəsuli-Əkrəm (s), qızı Fatimeyi-Zəhraya (s.ə) buyurdu: «Hüseyn (ə) müsibətinə ağlayan gözlərdən başqa, qiyamətdə bütün gözlər ağlar qalacaq. Ona ağlayan, qiyamət günü şad və gülər üz olacaq».

**8. Ölüm qorxusundan və cəhənnəm atəşindən amanda qalmaq:** Müsmə deyir: «Bir gün İmam Sadiq (ə) buyurdu: «Heç bilirsən düşmənlərimiz Hüseynlə (ə) necə rəftar etdilər?» Dedim: «Bəli». «Yadına düşəndə narahat olub ağlayırsanmı?» Dedim: «And olsun Allaha, qəmginləşib ağlayıram». Buyurdu: «Allah göz yaşlarına rəhm eləsin. Bizim dərdli günümüzə kədərlənib, şad günümüzə sevinən adamlardansan. Ölüm vaxtı acdadım başın üstündə olarlar. Ölüm mələyi Əzrayıla sənin barəndə xoş danışırlar. Mələk səninlə, ananın övlada mehribanlığı kimi rəftar edər». Sonra İmam buyurdu: «Kim Əhli-beytin (ə) müsibətinə kədərlənsə, gözündən yaş axmamış Allahın ona rəhmi gələr. Hər damcısı Cəhənnəmə düşərsə, alovu sevər. Ağlayan gözlər bizə baxmaqla xoşhal olar».

Bu şərif hədis göstərir ki, Cəhənnəm atəşi, İmam Hüseynə (ə) ağlayangöz yaşı ilə sönürsə, zəif dünya alovunun Hüseyn (ə) əzadarını yandırmaması, heç də təəccüblü deyil. Mərhum seyyid, doktor İsmayıl Mücab Hindistanda gördüyü hadisədən danışır: «Hindistandakı bütpərəstlərdən bəzilərinin İmam Hüseynə (ə) əqidələri olduğundan, Məhərrəmdə başqa müsəlmanlar kimi, əza saxlayıb sinə vururdular. Belə məclislərə maddiköməklik də edirdilər. Bir bütpərəst həmişə əza məclisində sinə vururdu. Dünyasını dəyişdikdə, adət-ənənə üzrə yandırıldı. Bədəni külə döndü, yalnız sağ əli və sinəsi yanmamışdı. Yaxın qohumları

sinəsini və əlini gətirib müsəlman qəbristanlığına dəfn edib dedilər: «Bunlar sizin Hüseynə (ə) aiddir».

**9. Hüseyn (ə) əzasında şeirin təsiri:** İmam Sadiq (ə) buyurur: «Hüseynə (ə) şeir deyib ağlayan, yaxud başqasını ağladan şəxsə Allah Behişti vacib edər və günahlarını bağışlayar».

## MƏRSİYƏLƏR

Əsrlərdir ki, müsəlman şairləri, Əhli-beyt məddahları, Əhli-beyt matəminə və Kərbəla faiciəsinə həsr olunmuş sonsuz sayda növhələr, şeirlər, mərsiyələr yazmışlar. Bu mövzu indi də şairlərin qələmində yenə də vəsf olunur. Burada oxucularımıza Hacı Rizvan İsmayılovun qələmə aldığı üç mərsiyəni oxucularımıza təqdim edirik. Sadə dildə yazılmış bu mərsiyələr ümid edirik ki, əza məclislərimizdə oxunaraq İmam Hüseynin (ə) və digər şəhidlərin pak ruhuna töhfə ediləcəkdir.

### HÜSEYNİM

Ey ağam, sərvərim başda tacım, Hüseynim.
Ümmətin rəhbəri, şəhid şahım, Hüseynim 2 dəfə

Gəldi Hüseyn əzası,
Olaq onun fədası. 2dəfə

Təşnələb səbirlə zikr eylədin Subhanı,
Kərbəla çölündə oldun Tanrı qurbanı,
Kor olmuş quzğunlar parçaladı pak canı,
Səkinə əşkindən coşdu qanım, Hüseynim.

Gəl, ey Zəhara balası,
Cümlə dərdin çarası. 2 dəfə

Abbasın Fərata bağlı qaldı yolları,
Bir qətrə içmədi, susuz qaldı ləbləri,
Şəmşirlər vurdular, qələm oldu qolları

«Ey vay belim sındı» - dedi, məzlum Hüseynim.

Gəl ey şahi-Mədinə,
Ümmət qurban adına. 2 dəfə

Mərəkə dəmində qıldın vacib namazı,
Hər yana yayıldı qəlb köynədən avazın,
Qismətin acılar yazdı bəxtinə yazı,
Dərdi dünyalardan ağır yüklüm, Hüseynim.

Neynəvanın sultanı,
Nahaq tökülən qanı. 2 dəfə

Ey rəşid qəhraman, Ali Rəsul aslanı,
Ləşkəri-düşmənə dar eyləyən dünyanı,
Axırda yer üstə düşdü mübarək canı,
Oxlanıb doğrandı, qibləgahım, Hüseynim

Başsız bədən yer üstə,
Zeynəb aldı diz üstə. 2 dəfə

Xeymələr nalədən qəm rənginə boyandı,
Rüqəyyə başında dördü-ələm çiləndi,
Zeynəbin bağrına qardaş dağı ələndi,
Bir tənha Səccadı qalan – salim Hüseynim!

Gözlər ağlar gözünə,
Əşk axıdar üzünə. 2 dəfə

Vay olsun halinə, qəlbi qara üdvanın,
Gör necə kəsdilər, Rəsul öpən boğazın,

Bişərəf, bihəya, Şümr ibn Zilcövşənin,
Rəcətdə üstünə gələr, qənim Hüseynim!

Şəmşir vurar dərinə,
Zalimlərin sərinə. 2 dəfə

Məhərrəm əzası, Ali-Yasinin yası,
Hər yandan yüksəldi, Hüseyn-Hüseyn sədası.
Rizvan da dostlarla geyər qarə libası,
Seylər-şəhid ağam, nurlu mahım, Hüseynim!

Türbəti can şəfası,
Gözlərin tutiyası. 2 dəfə

## QOLSUZ SİRDAŞIM, CAN ƏLƏMDARIM!

Düşmən amannamə yazdı, göndərdi sənə, göndərdi sənə,
İstədilər Hüseynini tək qalsın yenə, tək qalsın yenə.
Abbas şərəfin yolçusu dayaqsan dinə, dayaqsan dinə,
Qoymadım tək qardaşını, igid sirdaşı, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Əbülfəzlil-Abbasımın mehliqası var, mehliqası var.
Qəməri Bəni-Haşimin çox ziyası var, çox ziyası var.
Qəzəblənsə üzü yanar, çeşmi qan olar, çeşmi qan olar.
Aman verməz xainlərə igid sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Bir əlində haqq ələmi, birində şəmşir, birində şəmşir.
Dilində Allahu Əkbər nida eyləyir, nida eyləyir.
Əziz qardaşından cəngə izin istəyir, izin istəyir.
Qan içrə boğaz düşməni igid sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Uca boylu şüca ağam, mövla Əbəlfəzl, mövla Əbəlfəzl.
İmam xeyməsini qoru saxla, Əbəlfəzl, saxla Əbəlfəzl.
Dərdindən saralıb soldu Leyla Əbəlfəzl, Leyla Əbəlfəzl.
Əlqəmənin gözü ağlar, sənsiz sirdaşım, can ələmdarım.

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Hüseynin əmrini əda eylədin getdin, eylədin getdin.
Ətşan dəhanları sıravi etmək istədin, etmək istədin.
Məşki su ilə doldurub arxaya gəldin, arxaya gəldin.
Namərd pusqudan oxladı, səni sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Qolsuz qaldı Abbas ağam, din bayraqlarım, din bayraqlarım,
Ələmi sıxdı sinəyə qeyrətli şahım, qeyrətli şahım,
Üdvan məşkini oxladı, susuz qalanım, susuz qalanım,
Sinə və gözdən oxlanan igid sirdaşım, can ələmdarım!

Heydərin balası,

Hüseynin fədası. 2 dəfə

Saldılar atdan yer üstə qolsuz bədəni, qolsuz bədəni,
Salam ilə yad eylədin şahid Hüseyni, şahı Hüseyni
Həkim ibn Təfil ləin qətl etdi səni, qətl etdi səni,
Bihəya qarət eylədi, səni sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Görəndə qanlı nəşrini ah çəkdi Hüseyn, ah çəkdi Hüseyn,
«İndi belim sındı» dedi, ah çəkdi Hüseyn, ah çəkdi Hüseyn,
«Çarəm azaldı, düşmənin dili uzandı» söylədi Hüseyn,
Qardaş dağı yaman olur, igid sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Zeynəb müsibəti dözməz, ah-nalə çəkər, ah-nalə çəkər,
Qardaş cənazəsi üstə göz yaşı tökər, göz yaşı tökər,
İmam Səccad qəm içində nəşi cəm edər, nəşi cəm edər,
Dəfn eyləyər məzaridə səni sirdaşım, can ələmdarım!

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

Məqbərni ziyarətə gəldi dərdlilər, gəldi dərdlilər.
Hacət qapısısan, şəfa buldu mərizlər, buldu mərizlər.
Kəbəlaya dağ çəkilib, dərindi izlər, dərindi izlər.
Hərəminə zair olaq, şəhid sirdaşım, can ələmdarım.

Heydərin balası,
Hüseynin fədası. 2 dəfə

## HÜSEYNİM

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynin. 2 dəfə

Anamın əziz oğlu,
Nuri-didəsi oğlu,
Ciyər parəsi oğlu,
Təşnə ölən, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Qurban boyuna qardaş,
Qanlı boyuna, qardaş,
Tanrı yoluna qardaş.
Qurban olan, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Səkinə yetim qaldı,
Rüqəyyə dərddən soldu,
Səccadın gözü doldu,
Qəm yükündən, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Yetmiş iki yaran var,
Oxlardan axdı qanlar,
Alnına daş atarlar,
Daş olanlar, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Kimliyini dandılar,
Nə nəsihət qandılar,
Dünyaya aldandılar,
Əhli-nisyan, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Başın bədəndən ayrı,
Nizədə candan ayrı,
Bacın da səndən ayrı,
Qalan nalan, Hüseynim.

Nələr gəldi başına, 2 dəfə
Bacın ölsün, Hüseynim. 2 dəfə

Əkbərin doğradılar,
Əsğərin oxladılar,
Qasımin nakam qalar,
Tənha qalan, Hüseynim.

# MÜNDƏRİCAT

**Bismillahir-rəhmanir-rəhim** .......................................................... 3
Hər gün aşuradır, hər yer Kərbəla!..................................................... 4
Vəhhabiliyə qısa baxış.................................................................... 6
Vəhhabiliyin qısa tarixi ................................................................... 8
Vəhhabilərin batil (yanlış) əqidələri................................................ 13
Nəhhabilərin əqidələrinin şərhi rəddi .............................................. 15
**Ön söz** .............................................................................................. 18
Kitab və sünnətin məhvərində vəhdət ............................................. 18
**Birinci hissə** ...................................................................................... 20
Peyğəmbərin vəfat edən şəxs üçün ağlaması və bu işə təşviq etməsi barədə rəvayətləri ........................................................................... 20
1. Peyğəmbərin (s) Səd ibn Übadənin xəstələnməsinə ağlaması: ...... 20
2. Peyğəmbərin (s) öz övladı İbrahim üçün ağlaması. ...................... 20
3. Peyğəmbərin (s) öz nəvəsi üçün ağlaması. .................................. 21
4. Peyğəmbərin (s) əmisi üçün Həmzə ağlaması.............................. 22
5. Peyğəmbərin (s) Mutə döyüşündə şəhid olanlara ağlaması:.......... 23
6. Peyğəmbərin (s) Cəfər ibn Əbu Talibi ağlaması:......................... 23
7. Peyğəmbərin (s) anası Amənənin qəbri üstə ağlaması: ................. 24
**İkinci hissə** ........................................................................................ 25
Peyğəmbərin (s) müxtəlif hədislərdə nəvəsi Hüseynə (ə) ağlaması... 25
1. Ümmül-Fəzl hədisi:....................................................................... 25
2. Zeynəb bint Cəhəşin rəvayəti:...................................................... 26
3. Aişənin rəvayəti ............................................................................ 26
4. Ümmü Sələmənin (bu xanım Peyğəmbərin (s) ən möhtərəm zövcələrindən biridir) rəvayəti ....................................................... 27
5. Ənəs ibn Malikdən hədis ............................................................... 28
**Üçüncü hissə** ...................................................................................... 29
Peyğəmbərin (s) ağlamağı qadağan etməsi barədə olan rəvayətlərin mənşəyi............................................................................................... 29
Aişənin hədisə istidrakı və Ömərlə oğlundan səhvi dəf etməsi ......... 29
Allahin Rəsulu (s), Öməri ağlamağı qadağan etməkdən çəkindirir ... 31
Bu rəvayətlərin müqaisəsi və alınan nəticə....................................... 32
Əhli-beytin matəmində...................................................................... 32
Mərsiyələr.......................................................................................... 38
Hüseynim........................................................................................... 38

Qolsuz sirdaşım, can ələmdarım! ................................................... 40
Hüseynim.......................................................................................... 43

Hər gün Aşuradır, hər yer Kərbəla!........................................3
Vəhhabiliyə qısa baxış..........................................................5
Vəhhabiliyin qısa tarixi.........................................................7
Vəhhabilərin batil (yanlış) əqidələri......................................12
Vəhhabilərin əqidələrinin şərhi rəddi....................................14
Ön söz..................................................................................17
**Birinci hissə**.......................................................................19
Peyğəmbərin vəfat edən şəxs üçün ağlaması və bu işə təşviq etməsi barədə rəvayətləri.......................................................19
1. Peyğəmbərin (s) Səd ibn Übadənin xəstələnməsinə ağlaması.............................................................................19
2. Peyğəmbərin (s) öz övladı İbrahim üçün ağlaması.............................................................................19
3. Peyğəmbərin (s) öz nəvəsi üçün ağlaması..........................20
4. Peyğəmbərin (s) əmisi üçün Həmzə ağlaması....................21
5. Peyğəmbərin (s) Mutə döyüşündə şəhid olanlara ağlaması.............................................................................22
6. Peyğəmbərin (s) Cəfər ibn Əbu Talibi ağlaması................22
7. Peyğəmbərin (s) anası amənənin qəbri üstə ağlaması.............................................................................23
**İkinci hissə**.........................................................................24
Peyğəmbərin (s) müxtəlif hədislərdə nəvəsi Hüseynə (ə) ağlaması.............................................................................24
1. Ümmül-Fəzl hədisi............................................................24
2. Zeynəb bint cəhəşin rəvayəti.............................................25
3. Aişənin rəvayəti................................................................25
4. Ümmü Sələmənin (bu xanım Peyğəmbərin (s) ən möhtərəm

zövcələrindən biridir) rəvayəti..............................................26
5. Ənəs ibn Malikdən hədis..................................................27

**Üçüncü hissə**......................................................................28
Peyğəmbərin (s) ağlamağı qadağan etməsi barədə olan rəvayətlərin mənşəyi.............................................................28
Aişənin hədisə istidrakı və Ömərlə oğlundan səhvi dəf etməsi..........................................................................28
Allahin Rəsulu (s), Öməri ağlamağı qadağan etməkdən çəkindirir........................................................................30
Bu rəvayətlərin müqaisəsi və alınan nəticə............................31
Əhli-beytin matəmində.........................................................31
Mərsiyələr..........................................................................37
Hüseynim...........................................................................37
Qolsuz sirdaşım, can ələmdarım!..........................................39
Hüseynim...........................................................................42